# ABŞERON YARIMADASINDA *MYRTACEAE* JUSS. FƏSİLƏSİNƏ AİD BƏZİ BİTKİ NÖVLƏRİNDƏ ZƏRƏRVERİCİ HƏŞƏRAT VƏ XƏSTƏLİKTÖRƏDİCİLƏRİN TƏDQİQİ

**Şaməddin Qəhrəmanov[1], Hüseyn Məmmədov[2]**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu, qhrmanov62@mail.ru*

Abşeron yarımadasında milli park, bağ və yaşıllıqların salınmasında öz dekorativ gözəlliyi ilə seçilən çoxillik ağac və kol bitkilərindən geniş istifadə edilir. Bu bitki növləri arasında evkalipt (*Eucalyptus*) və adi mərsin (*Myrtus comminis* L) mühüm əhəmiyyətə malikdir.

Yarımadada bu qiymətli bitkilər hər il bir sıra xəstəlik və zərərvericilərin mənfi təsirinə məruz qalaraq, özlərinin estetik görünüşünü itirir, inkişafdan qalır və nəticədə quruyaraq məhv olur. Yaşıllaşdırma təsərrüfatlarında bu növlərin xəstəliktörədicilərin və zərəvericilərin mənfi təsirindən qorunması olduqca vacibdir və bu istiqamətdə elmi tədqiqat işlərinin aparılması zəruridir, alınan nəticələrin tətbiqindən biomüxtəliflik qorunaraq, ekoloji təhlükəsizlik təmin olunur.

Tədqiqat işində Abşeron aqrosenozlarında becərilən evkalipt bitkilərində (Eucalyptus) aşağıdakı zərərverici həşəratlar və xəstəlik törədicisi müəyyən edilmişdir:

Zərərverici həşəratlar:

1. Ofelimus maskelli (*Ophelimus maskelli* Ashmed)
2. Evkalipt xalsidası (*Leptosybc invasa*)
3. Dəyişkən ipəksarıyan (*Lymantria dispar*)

Xəstəlik törədicisi: Mərhələli xərçəng xəstəliyi (*Dasyscypa villkommi*).

Yarımadada adi mərsin bitkisində isə (*Myrtus communis* L.) yapon yalançı çanaqlı mumlu yastıcasına (*Ceroplastes yaponicus* Green) rast gəlinmişdir.

Dendrologiya İnstitutunun ərazisində becərilən evkalipt ağacları üzərində fitosanitar monitorinq keçirilmişdir. Monitorinqlər zamanı evkalipt ağaclarının gövdələrində müxtəlif ölçüdə yaralar aşkar edilmişdir. Yara patalogiya ilə müşahidə edilmişdir.

Bu bitkilərdə gövdə qabığı pulcuqlanır, qabıqlanır, qabıqda uzununa çatlar yaranır, qabığ gövdədən aralanaraq qalxır və sonda yara üzərindən qabığ qoparaq düşür, oduncaq çılpaq qalır. Eyni zamanda ağac çətirinin müxtəlif yaruslarında sklet budaqlarının quruması və çətirin təpə hissəsinin inkişafdan qalması müşahidə edilmişdir. Xəstəlik törədicisi bitki ilə uzun müddət 40-50 il və daha çox birgə yaşaya bilir.

Yoluxmuş bitkilərdə yaraların yaranması, yaranın üzərindəki qabığın qoparaq düşməsi nəticəsində oduncaq birbaşa çılpaq görünür. Yaranın kənarlarında kiçik ölçülü (0,2-0,3mm) rəngi tünd qonurumtul, bərkimiş saqqıza bənzər maddələrdən təşkil olunmuş qara şişkinliklər xəstəlik törədicisinin çanta sporlarıdır. Yara hər il eninə və uzununa böyüyür. Yaranın eninə böyüməsi xəstəliyin intensivliyindən, uzununa böyüməsi isə illik halqaların qalınlığı və ağacın ümümi inkişafından asılıdır.

Xəstəliyin törədicisi çantalı göbələkdir (*Lachnellula Willkommii* Rehni). Yoluxma əsasən gövdə qabığının nazik, zərif və həmçinin mexaniki zədə və ya həşərat tərəfindən zədələnmiş hissəsində baş verir. Göbələk mitseli əvvəlcə qabıqda inkişaf edərək çoxalır, sonra isə kambiyə keçir, yayılaraq oduncaq toxumalarını məhv edir. Mərhələli xərçəng xəstəliyinin törədicisi uzun müddət bitki ilə yaşayışını davam edərək, bitkidə fizioloji proseslərin pozulmasına, nəticədə ağacın tədricən zəiflənərək sıradan çıxmasına səbəb olur. Xəstəlik törədicisi bütün yaş dövürlərində bitkiyə yoluxa bilir, lakin yaşlı bitkilərdə daha geniş yayılır.

Aparılan tədqiqatlarla müəyyən olunmuşdur ki, Abşeron aqrosenozlarında evkalipt bitkilərində mərhələli xərçəng xəstəliyi kifayət qədər (20%) yayılmışdır və bu bitkilərin quruyaraq məhv olmasının başlıca səbəbi xəstəliyi törədən çantalı göbələklərdir.

Mərhələli xərçəng xəstəliyinə yoluxmuş ağacların ömrü xəstəlik nəticəsində ağac gövdəsinin müxtəlif yerlərində və ya əsas sklet budaqlarında yaranan yaraların miqdarından, ölçüsündən və yerləşmə yerindən asılıdır.

Ən təhlükəli vəziyyət ağac gövdəsinin aşağı yarusunda yaranan yaralardır, belə ağaclarda gövdənin 2/3 hissəsi zədələndikdə onlar güclü küləyə tab gətirməyərək sınır.

Hazırkı dövrdə yarımadada qeyd olunan zərərverici həşəratların bitkilərə təsiri mühüm təsərrüfat əhəmiyyəti olmadığından onlara qarşı mübarizə tədbirlərinin aparılmasına ehtiyac duyulmur. Lakin mərhələli xərçəng xəstəliyi evkalipt bitkiləri üçün bir qədər təhlükəli və ziyanlı olduğundan, mübarizə işlərinin elmi əsaslandırılmsı istiqamətində tədqiqatların aparılması məqsədəuyğundur.